## *İstifadəçi razılaşması*

*Hazırkı İstifadəçi razılaşması (bundan sonra "Razılaşma") «Gmoji.az» MMC (bundan sonra "Agent") ilə fəaliyyət qabiliyyətli fiziki şəxs (bundan sonra "İstifadəçi") arasında bağlanır. «Gmoji.az» MMC Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 42-ci fəslinə və Azərbaycan Respublikasının müvafiq mülki qanunvericiliyinə əsasən agent müqavilələri və xidmətlərin göstərilməsi haqqında müqavilələr əsasında elektron sənəd şəklində məhsulların və xidmətlərin alınmasına dair hüquqları həyata keçirən Müəssisələr adından Agent və ya İcraçı qismində çıxış edir. İstifadəçi ilə münasibətlərdə Agent aşağıda göstərilən şərtlərə uyğun olaraq ümumi oferta əsasında fəaliyyət göstərir.*

*Gmoji App mobil aplikasiyasında qeydiyyat və ya avtorizasiya və məhsulun və ya xidmətin alınmasına dair əldə edilmiş hüquq üçün ödənişin həyata keçirilməsi, hazırkı Razılaşmanın bağlanmasına dair razılıq (ofertanın aksepti) kimi qəbul edilir. Hazırkı Razılaşma İstifadəçi tərəfindən Gmoji App mobil aplikasiyasında qeydiyyat və ya avtorizasiya proseduru başa çatdığı andan bağlanmış hesab edilir.*

### *1. Terminlər və anlayışlar*

*"**Gmoji App**" – «Gmoji.az» MMC-nin əqli mülkiyyətində olan istənilən elektron məlumat mübadiləsi vasitəsi üzərindən məhsulların və xidmətlərin (bundan sonra "məhsullar") Gmoji şəklində ani ötürülmə servisi. Hazırkı Razılaşma kontekstində Gmoji App tərkibinə IOS və Android mobil əməliyyat sistemləri üçün mobil aplikasiya və onunla əlaqədar Gmoji tərtib edilməsi və uçotunun aparılması üçün kənar platforma daxil olan EHM üçün proqram anlaşılır.*

*"**Unikal kod**" – QR-kod, Ştrix kod, təsadüfi rəqəmsal kod və ya proqram vasitəsilə qenerasiya olunmuş və hər Məhsul vahidi üçün verilmiş digər eyniləşdirici.*

*"**Gmoji**" – Agent tərəfindən yaradılmış məhsulun alınması üçün özündə aşağıdakıları əks etdirən elektron sənəd:*

*a) Məhsulun adı;*
*b) Məhsulun təsviri;*
*c) Məhsulun şəkli;*
*ç) Unikal kod;*
*d) Gmoji-nin etibarlılıq müddəti;*
*e) Məhsulun alınma lokalizasiya nöqtələrinin interaktiv xəritəsi;*
*ə) Məhsulun çatdırılmasının (bəzi növ mallar üçün) rəsmiləşdirilməsi üçün düymə;*
*f) Məhsulu təqdim edən Müəssisəyə çağırış/zəng düyməsi;*
*g) Çatdırılma şərtləri barədə məlumat.*

*Gmoji onun sahibi və ya istənilən digər şəxs tərəfindən Məhsulun alınması məqsədi ilə Müəssisəyə təqdim etmək üçün nəzərdə tutulub. Gmoji rəqəmsal kontent olduğundan, qeyri-məhdud sayda sahibi ola bilər.*

*"**İstidadəçi**" – Gmoji App istifadəçisi olan edən şəxs.*

*"**Müəssisə**" – Gmoji App mobil aplikasiyasında Gmojini satınalmaq yolu ilə hüquqlarını əldə etmək mümkün olan Məhsulların satışını və xidmətlərin göstərilməsini həyata keçirən hüquqi şəxs.*

*"**Agent**" – Gmoji App mobil aplikasiyasını idarə edən və orada Gmojiləri əldə etmək üçün Müəssisələrin təkliflərini yerləşdirən «Gmoji.az» MMC.*

*“**Məhsul**” – Gmojinin təqdim edilməsi ilə Müəssisə tərəfindən İstifadəçiyə təqdim edilən məhsul və ya xidmət. Bəzi növ Məhsulların çatdırılması Müəssisə tərəfindən həyata keçirilir. Çatdırılma xərci Məhsulun dəyərinə daxildir.*

*“**Gmojinin sahibi**” – Məhsulun alınması üçün Müəssisəyə Gmoji təqdim edən İstifadəçi və ya digər şəxs. Gmoji “təqdim edən şəxsin” elektron sənədidir.*

*“**Gmojinin təqdim edilməsi**” – Gmojinin sahibi tərəfindən Məhsulun alınması üçün Müəssisəyə təqdim edilən unikal kod. Gmoji sahibi unikal kodu skan edilməsi üçün təqdim etməli, və ya bəzi hallarda onu bildirməli və ya xüsusi xanaya daxil etməlidir.*

*“**Gmojinin etibarlılıq müddəti**” – Gmoji sahibinin Müəssisədən Məhsulu almaq hüququnun, Müəssisənin isə Məhsulu təqdim etmək öhdəliyinin mövcud olduğu zaman kəsiyi. Gmojinin etibarlılıq müddəti Gmoji üzərində əks olunur və azalma qaydasında günlər və saatlarla hesablanır.*

*“**Ödənilmiş Gmoji**” – Müəssisədən Məhsulun alınması zamanı unikal kodu istifadə olunmuş Gmoji. Gmojini ödəmək Müəssisənin öhdəliyidir.*

*“**Pin kod**” – Məhsulun alınmasını təsdiq etmək üçün Gmoji üzərində əks olunan rəqəmsal kod.*

*“**Gmojinin qiyməti**” – Gmojinin dəyəri (qiyməti) Məhsulu əks etdirən nişanın altında və Məhsulun kartında Azərbaycan manatı ilə göstərilir.*

*“**Ödəniş tapşırığı**” – Həyata keçirilmiş tranzaksiya barədə ətraflı məlumatı özündə əks etdirən bildiriş. Ödəniş tapşırığı ödəniş həyata keçirildikdən sonra İstifadəçinin “Profil” bölməsində göstərilən elektron poçt ünvanına çek və qəbz şəklində göndərilir.*

*“**Gmoji App-də qeydiyyat**” – Gmoji App-ə girişi həyata keçirmək üçün Alıcı tərəfindən qeydiyyat məlumatlarınnın (telefon, ad, doğum tarixi və digər məlumatlar).*

*“**İstifadəçinin elektron poçt ünvanı (e-mail)**” - Gmoji App-də qeydiyyat zamanı göstərilən İstifadəçinin elektron poçt ünvanı. Gmoji App İstifadəçinin elektron poçt ünvanına Ödəniş tapşırığı və digər bildirişlər göndərir.*

## ***2. Razılaşmanın predmeti.***

*2.1. Hazırkı Razılaşmaya əsasən «Gmoji.az» MMC İstifadəçiyə profilaktik və digər işlərin icra edilməsi vaxtı, həmçinin Alıcıya Gmoji App mobil aplikasiyasına giriş etməyə əngəl törədən digər hallar istisna olmaqla, elan edilmiş funksional imkanlar çərçivəsində istənilən vaxt və hazırkı Razılşmada izah edilmiş istənilən şərtlərlə, istənilən qaydada, istənilən şəkildə Gmoji App-dən müstəsna olmayan əvəzsiz istifadə hüququ təqdim edir.*

*2.2. **«Gmoji.az» MMC** xidmətlərin faktiki İcraçısı və Məhsulların satıcısı deyil və Agentlə agent və ya xidmət müqaviləsi bağlamış Müəssisələrin adından, onların xeyrinə və onların hesabına fəaliyyət göstərir. Hazırkı Razılaşma Gmoji App mobil aplikasiyasından istifadə etməklə müstəsna olaraq Gmoji əldə etmək, əldə edilmiş Gmojilər üçün ödəniş və Müəssisəyə təqdim etmə qaydalarını tənzimləyir və heç*

*bir halda Məhsulların alqı-satqı müqaviləsi deyil.*

*2.3. Yetkinlik yaşına çatmayan şəxslər Gmoji App mobil aplikasiyasından istifadə etmək hüququna yalnız hazırkı Razılaşma ilə razılıq onların valideynləri və ya qanuni nümayəndələri tərəfindən verildiyi təqdirdə malik olur. Yetkinlik yaşına çatmayan İstifadəçi tərəfindən mobil aplikasiyanın istifadəsi zamanı hazırkı Razılaşmanın və ya qüvvədə olan qanunvericiliyin pozulması hallarında məsuliyyəti onların valideynləri və ya qanuni nümayəndələri daşıyır.*

*2.4. Alıcı, Alıcı tərəfindən mobil aplikasiyanın yenilənməsi və istismar prosesi zamanı yaranan nasazlıqlar (o cümlədən: digər proqram məhsulları (aplikasiyalar, drayverlər və s. ilə uyğunlaşma problemləri, istifadə kitabçasının çoxmənalı izahı ilə əlaqədar yaranan problemlər, mobil aplikasiya funksionalının Alıcının gözləntiləri ilə uzlaşmaması və s.) səbəbindən Gmoji App-in ona "OLDUĞU KİMİ" təqdim edilməsindən və «Gmoji.az» MMC-nin məsuliyyət daşımadığı barədə məlumatlıdır. «Gmoji.az» MMC Alıcıya mobil aplikasiyanın istifadəsi nəticəsində hər hansı xeyir və ya mənfəət əldə edəcəyinə dair zəmanət vermir.*

## *3. Gmoji App mobil aplikasiyasında qeydiyyat və ondan istifadə qaydası*

*3.1. Mobil aplikasiyanın və ya onun başqa funksiyalarından yararlanmaq məqsədilə, İstifadəçi ona unikal Hesabın yaradılması ilə və mobil aplikasiyaya çıxış təqdim edilməsi ilə nəticələnəcək qeydiyyat prosedurundan keçməlidir.*

*3.2. Qeydiyyat üçün İstifadəçi qeydiyyat formasında göstərilən sualları lazımi qaydada doldurmağı və bu məlumatı aktual halda saxlamağı öhdəsinə götürür. Qeydiyyat zamanı təqdim olunmuş məlumatın tamlığına və həqiqiliyinə dair məsuliyyət daşıyır (elektron poçt ünvanı, mobil telefon nömrəsi). Dolğun / tam olmayan məlumat təqdim edildiyi təqdirdə, «Gmoji.az» MMC fiskal elektron sənədlərin təqdim edilməməsinə və Müəssisə tərəfindən Məhsulun çatdırılmasına mümkün etiraz etməsinə görə məsuliyyət daşımır. Elektron ünvanın göstərilməsi məcburidir.*

*3.3. İstifadəçi ona dair hazırkı Razılaşmada nəzərdə tutulmuş bütün hərəkətlərin aparılmasını qeydiyyat proseduru zamanı məlumatları «Gmoji.az» MMC-yə təqdim edilən şəxs tərəfindən həyata keçirildiyini təsdiq edir və buna zəmanət verir.*

*3.4. İstifadəçi yalnız bir hesabla qeydiyyatdan keçə bilər*

*3.5. Gmoji App mobil aplikasiyasından istifadə nəticəsində şəxsi hesabdan edilən bütün hərəkətlərə (həmçinin onların nəticələrinə) görə İstifadəçi müstəqil şəkildə məsuliyyət daşıyır. Gmoji App mobil aplikasiyasından istifadə çərçivəsində İstifadəçi hesabından aparılan bütün əməliyyatların İstifadəçi tərəfindən aparılması hesab edilir.*

*3.6. İstifadəçilərin şifrələrinin üçüncü şəxslər tərəfindən ələ keçirilməsi və ələ keçirilmiş şifrələrlə üçüncü şəxslər tərəfindən aparılan istənilən əməliyyatlara görə «Gmoji.az» MMC məsuliyyət daşımır.*

*3.7. İstifadəçi Gmoji mobil aplikasiyasına istənilən icazəsiz giriş və / və ya öz hesabının konfidensiallığının pozulması (pozulma barədə şübhə) barədə dərhal «Gmoji.az» MMC-yə məlumat*

*vermәlidir.*

*3.8. "Gmoji.az" MMC-nin İstifadәçiyә mәlumat-reklam xarakterli mәktublar göndәrmәk hüququ var. İstifadәçi belә mәktublar almaq istәmәdiyi tәqdirdә, Gmoji App mobil aplikasiyasının müvafiq seçimi vә ya öz poçt servisi vasitәsilә müraciәt etmәlidir.*

***4. «Gmoji.az» MMC-nin hüquq vә öhdәliklәri***

*4.1. «Gmoji.az» MMC kәsilmәlәrin qarşısının alınması üçün bütün tәdbirlәr görmәlidir, lakin Gmoji App mobil aplikasiyasının fәaliyyәtindә müvәqqәti texniki kәsilmәlәr vә fasilәlәrin yaranmasında yaranma sәbәblәrindәn asılı olmayaraq mәsuliyyәt daşımır.*

*4.2. «Gmoji.az» MMC-nin mülkiyyәti olmayan İnformasiya-nәqliyyat kanallarından vә digәr avadanlıqlardan istifadә edilmәsinin mümkün olmaması vә ya üçüncü şәxslәrin hәrәkәt vә hәrәkәtsizliyi hazırkı Razılaşma әsasında göstәrilәn xidmәtlәrә birbaşa tәsir etdiyi tәqdirdә, hәmçinin qәza vәziyyәti ilә әlaqәdar olaraq «Gmoji.az» MMC Gmoji App mobil aplikasiyasına çıxışı dayandırmaq hüququna malikdir. Bu halda «Gmoji.az» MMC kәsinti, fasilә, resurslardan vә Gmoji App mobil aplikasiyasından istifadә etmәk mümkün olmaması sәbәbindәn yaranmış zәrәrlәrә görә İstifadәçi qarşısında mәsuliyyәt daşımır vә belә zәrәri kompensasiya etmir.*

*4.3. Gmoji App mobil aplikasiyası daima tәkmillәşdirmә vә imkanların yenilәnmәsi mәrhәlәsindә olduğundan, tәqdim edilәn funksiyaların adları vә tәrkibi Alıcıya qabaqcadan müvafiq bildiriş verilmәdәn zaman-zaman dәyişikliyә mәruz qala bilmәsini nәzәrә alaraq, «Gmoji.az» MMC Alıcıya heç bir bildiriş vermәdәn, öz mülahizәsinә әsasәn Gmoji App mobil aplikasiyasının hәr hansı ayrı funksiyalarının fәaliyyәtini (müvәqqәti vә ya tam) şәkildә dayandırmaq hüququna malikdir.*

*4.4. «Gmoji.az» MMC daimi olaraq aparat-proqram kompleksini tәkmillәşdirmәyi öhdәsinә götürür, lakin Gmoji App mobil aplikasiyasının proqram tәminatında sәhvlәrin mövcud olmamasına vә aparat hissәsinin işlәk parametrdәn çıxmayacağına vә fasilәsiz işlәyәcәyinә zәmanәt vermir.*

*4.5. Alıcının vә üçüncü şәxslәrin qeyri-peşәkar hәrәkәtlәri nәticәsindә yaranan zәrәr vә digәr itkilәrә görә «Gmoji.az» MMC mәsuliyyәt daşımır.*

***5. İstifadәçinin hüquq vә öhdәliklәri***

*5.1. Hәr dәfә Gmoji App mobil applikasiyasına daxil olduqda, İstifadәçi hazırlkı Razılaşmanın aktual versiyası ilә tanış olmağı vә onun qaydalarına riayәt etmәyi öhdәsinә götürür.*

*5.2. İstifadәçi, yayılması onün üçün mәnfi nәticәlәrә sәbәb ola bilәcәk şәxsi mәlumatların gizli saxlanmasını şәxsәn tәmin etmәlidir Belә risklәrlә vә zәrәrlә bağlı İstifadәçi tәkbaşına mәsuliyyәt daşıyır.*

*5.3. İstifadәçinin Gmoji App mobil aplikasiyısını tәqlid etmәk, tәkrarlamaq, surәtini çıxarmaq, satmaq vә tәkrar satmaq, hәmçinin kommersiya mәqsәdlәri ilә istifadә etmәk hüququ yoxdur.*

*5.4. İstidadәçi "Profil" bölmәsindә doğum tarixini düzgün göstәrmәyә borcludur.*

***6.a. Gmoji mobil aplikasiyasında Gmoji almaq qaydası.***

*6.a.1. Gmoji əldə etmək üçün İstifadəçi aşağıdakı hərəkətləri etməlidir:*
*a) Gmoji App mobil aplikasiyasına şəxs hesabdan daxil olmaq və ya avtorizasiyadan keçmək.*

*b) Gmoji Məhsulunun qiymətinə uyğun nişanı seçib sıxmaq.*

*c) Gmojiyə aid edilmiş Məhsulun nişanına keçid edib Məhsulun adı və təsviri ilə tanış olmaq. Aktiv olan "Almaq" düyməsinə sıxmaq.*

*ç) Sifariş olunmuş Gmojinin dəyərini Apple Pay, Google Pay və ya bank kartı vasitəsilə ödəmək. Bank kartı ilə ödəniş həyata keçirmək üçün İstifadəçi avtomatik olaraq aşağıda göstərilənlərin qeyd edilməsi zəruri olan ödəniş sisteminin təhlükəsiz səhifəsinə keçid edir:*

- *Bank kartında göstərilən kart sahibinin ad və soyadı;*
- *Bank kartının nömrəsi;*
- *Kartın etibarlılıq müddəti;*
- *CVC2/CVV2 kodları.*

*Növbəti ödənişlərin asanlaşdırılması üçün İstifadəçi öz bank kartının məlumatlarını ödəniş sisteminin yaddaşında saxlaya bilər. Bank kartını İstifadəçiyə bağlamaq üçün İstifadəçi "Profil" səhifəsində bütün xanaları doldurmalıdır. «Gmoji.az» MMC İstifadəçinin ödəniş məlumatlarını saxlamır və emal etmir.*

*6.a.2. Ödəniş uğurla həyata keçdiyi təqdirdə, İstifadəçinin qeydiyyat zamanı göstərilən elektron ünvanına aşağıdakı məlumatları özündə əks etdirən ödəniş tapşırığı daxil olacaq:*

*a). Ödəniş kartları vasitəsi ilə həyata keçirilən əməliyyatların aparılması üçün nəzərdə tutulan bankomatın, elektron terminalın və digər texniki avadanlığın identifikatoru;*
*b). Əməliyyat növü;*
*c). Əməliyyatın keçirilməsi vaxtı;*
*ç). Əməliyyatın məbləği;*
*d). Əməliyyatın məzənnəsi;*
*e). Təsdiqləmə kodu;*
*ə). Gmojinin adı.*

*«Gmoji.az» MMC İstifadəçinin ödənişi həyata keçirdiyi əməliyyat sistemlərinin hərəkətlərinə, o cümlədən, həmin ödəniş sistemlərinin işində mövcud olan səhvlərə, həmçinin İstifadəçi tərəfindən daxil edilmiş məlumatların onlar tərəfindən emal edilməsinə görə məsuliyyət daşımır.*

*6.a.3. Ödəniş uğurlu keçdikdən sonra Gmoji App mobil aplikasiyası Gmoji yaradır və "Mənim Gmojilərim" səhifəsində yerləşdirir.*

***6.b. Gmoji klaviaturasında Gmojilərin əldə edilməsi qaydası***

*6.b.1. Gmojini əldə etmək üçün İstifadəçi aşağıdakı hərəkətləri ardıcıl yerinə yetirməlidir:*

*a). Gmoji App mobil aplikasiyasına öz hesabı ilə daxil olmaq və ya avtorizasiyadan keçmək.*
*b). Gmoji mobil aplikasiyasının "Profil" bölməsinə daxil olub bütün bölmələri doldurmaq;*
*c). Ödəniş servisində qeydiyyatdan keçmək və bank kartının aşağıdakı məlumatlarını daxil etmək:*

- *Bank kartında göstərilən kart sahibinin ad və soyadı;*
- *Bank kartının nömrəsi;*
- *Kartın etibarlılıq müddəti;*
- *CVC2/CVV2 kodları.*

*«Gmoji.az» MMC İstifadəçinin ödəniş məlumatlarını emal etmir və saxlamır.*

*ç). Şəxsi smartfonun tənzimləmələrinin klaviatura / klaviaturalar bölməsinə daxil olmaq.*
*d). Gmoji klaviaturasını seçib onu klaviaturalar siyahısına daxil etmək və Gmoji klaviaturasına tam çıxış vermək.*
*e). Gmoji klaviaturasını istənilən elektron mübadilə sistemində açmaq və Gmoji Məhsuluna uyğun qiymətli nişanı seçmək və düyməni sıxmaq. Bu an ödəniş servisinin sistemi bank kartının hesabından silməni həyata keçirəcək. Uğurlu ödənişdən sonra Gmoji App mobil aplikasiyası Gmoji yaradacaq və mətn sətrində ona keçid əlavə edəcək.*
*ə)."Göndər" düyməsini sıxmaq. Hər elektron məlumat mübadilə sistemi Gmoji keçidi üçün özünün önizləmə təsvirini yaradır.*

*6.b.2. Ödəniş uğurla həyata keçdiyi təqdirdə, İstifadəçinin qeydiyyat zamanı göstərilən elektron ünvanına aşağıdakı məlumatları özündə əks etdirən ödəniş tapşırığı daxil olacaq:*

*a). Ödəniş kartları vasitəsi ilə həyata keçirilən əməliyyatların aparılması üçün nəzərdə tutulan bankomatın, elektron terminalın və digər texniki avadanlığın identifikatoru;*
*b). Əməliyyat növü;*
*c). Əməliyyatın keçirilməsi vaxtı;*
*ç). Əməliyyatın məbləği;*
*d). Əməliyyatın məzənnəsi;*
*e). Təsdiqləmə kodu;*
*ə). Gmojinin adı.*

*«Gmoji.az» MMC İstifadəçinin ödənişi həyata keçirdiyi əməliyyat sistemlərinin hərəkətlərinə, o cümlədən, həmin ödəniş sistemlərinin işində mövcud olan səhvlərə, həmçinin İstifadəçi tərəfindən daxil edilmiş məlumatların onlar tərəfindən emal edilməsinə görə məsuliyyət daşımır.*

*6.b.3. Ödəniş uğurlu keçdikdən sonra Gmoji App mobil aplikasiyası Gmoji yaradır və "Mənim Gmojilərim" səhifəsində yerləşdirir.*

***7. Gmojinin göndərilməsi və Müəssisədən Məhsulun əldə edilməsi üçün Gmoji təqdim etmə.***

*7.1. Gmojini göndərmək üçün İstifadəçi aşağıdakı vasitələrdən istifadə edə bilər:*

- *Gmoji səhifəsində aktiv olan "Göndər" düyməsinə sıxmaq və smartfonda quraşdırılmış məlumatların elektron mübadiləsi servislərindən birini seçmək.*
- *Gmoji klaviaturasında İstifadəçidə aktiv Gmoji(lər)in mövcudluğunu ifadə edən qırmızı ilə işarələnmiş nişanı seçmək və elektron məlumat mübadiləsi servisinin sadə funksionalını istifadə etməklə göndərmək. İstənilən kəsinti nəticəsində, Gmoji "Mənim Gmojilərim" səhifəsində "Göndərilənlər" bölməsinə düşür.*

*7.2. Məhsulu Müəssisədən əldə etmək üçün Gmoji sahibi aşağıdakı vasitələrdən birindən istifadə edə bilər:*

- *Gmoji üzərində olan unikal kodu, daha sonra isə pin kodu Müəssisəyə təqdim etməklə.*
- *Gmoji içində xüsusi açılan pəncərəyə pin kod daxil etməklə (bir neçə növ Məhsul üçün)*
- *Müəssisənin veb səhifəsində xüsusi pəncərəyə unikal və pin kodları daxil etməklə.*

***8. Gmojinin geri qaytarılması.***

*8.1. Gmojinin geri qaytarılmasına yalnız hazırkı Razılaşmada göstərillən şərtlər əsasında yol verilir.*

*8.2. Aşağıdakı hallarda Gmoji sahibi «Gmoji.az» MMC-dən Gmojini qəbul etmək və pul vəsaitlərinin geri qaytarılmasını tələb etmək hüququna malikdir:*

*a). Müəssisə Gmoji əsasında Məhsulu təqdim etməkdən iki dəfə imtina etdikdə və Müəssisə fəaliyətini dayandırdıqda. Belə hal yarandığı təqdirdə, Alıcı Gmoji App mobil aplikasiyasında qeydiyyatdan keçmiş elektron poçtundan "support@gmoji.az" elektron poçt ünvanına aşağıdakı məlumatları təqdim etməlidir:*

- *Məhsulu təqdim etməkdən imtina etmiş Müəssisənin ünvanı və adı və ora baş çəkmə tarixini və saatı;*
- *Satınalma zamanı Alıcının elektron poçt ünvanına göndərilən Gmojinin ödəniş qəbzində olan çekin nömrəsi;*
- *Məktubun mövzusu: "Pul vəsaitinin geri qaytarılması".*

*b). Gmoji təsadüfən və ya səhvən əldə edildikdə və Müəssisədə göstərilmədikdə. Belə halın baş verməsi zamanı Alıcı elektron poçtundan "support@gmoji.az" elektron poçt ünvanına aşağıdakı sənədləri təqdim etməlidir:*

- *Satınalma zamanı Alıcının elektron poçt ünvanına göndərilən Gmojinin ödəniş qəbzində olan çekin nömrəsi;*
- *Məktubun mövzusu: "Pul vəsaitinin geri qaytarılması".*

*Belə müraciət daxil olduğu tarixdən bir iş günü ərzində «Gmoji.az» MMC tranzaksiya və Gmoji barədə məlumatları araşdırır və nəticə barədə Gmoji sahibinə məlumat verir.*

*8.3. Pul vəsaitlərinin geri qaytarılması haqqında qərar qəbul edildikdə, ödənilmiş pul vəsaiti həcmində geri ödəniş həyata keçirilir. Pul vəsaitlərinin geri ödənilməsi yalnız ödəniş edilmiş bank kartının hesabına nağdsız şəkildə həyata keçirlir. Pul vəsaiti ən geci 10 iş günü ərzində köçürülməlidir (kartın emitent bankından asılıdr).*

***9. Şəxsi məlumatların emalı.***

*9.1. Gmoji App mobil aplikasiyasında qeydiyyat zamanı Alıcı Agentə aşağıdakı şəxsi məlumatları təqdim edir:*

- *Soyad,*
- *Ad,*
- *elektron poçt ünvanı,*
- *telefon nömrəsi.*

*9.2. «Gmoji.az» MMC təqdim edilən məlumatı qüvvədə olan qanunvericiliyin tələblərini və İstifadəçi qarşısında öz öhdəliklərini icra etmək üçün istifadə etmək hüququna malikdir. Müəssisə tərəfindən satılan Məhsulların mahiyyətindən Məhsulların satışı ilə bağlı öhdəliklərin icra edilməsi üçün verilən məlumatların Müəssisəyə təqdim edilməsi zərurəti yarandıqda, «Gmoji.az» MMC belə məlumatları Müəssisəyə təqdim etmək hüququna malikdir.*

*9.3. İstifadəçi verilən məlumatların həqiqilinə dair məsuliyyət daşıyır.*

*9.4. Hazırkı Razılaşmanın 9.1.-ci bəndində göstərilən şəxsi məlumatların emalı, Azərbaycan Respublikasının qüvvədə olan qanunveciliyinə əsasən emal edilməsi üçün İstifadəçinin xüsusi razılığı tələb olunan xüsusi kateqoriyaya daxil olmayan şəxsi məlumatların yazılması, sistemləşdirilməsi, yığılması saxlanması, dəqiqləşdirilməsi (yenilənməsi, dəyişdirilməsi), çıxarılması, istifadəsi, ötürülməsi (yayılması, təqdim edilməsi, daxil olması), simasızlaşdırılması, təcrid edilməsi, pozulması, ləğv edilməsi anlaşılır.*

*9.5. Şəxsi məlumatların emalı «Gmoji.az» MMC tərəfindən verilənlər bazasından istifadə etməklə Azərbaycan Respublikasının ərazisində həyata keçirilir.*

*9.6. İstifadəçi istənilən vaxt «Gmoji.az» MMC-nin support@gmoji.az elektron poçt ünvanına müvafiq bildiriş göndərməklə şəxsi məlumatların emal edilməsinə dair verdiyi razılığı geri çağıra bilər. Bu halda, İstifadəçidən alınan bütün məlumat (o cümlədən, hesab və şifrə) Gmoji App mobil aplikasiyasından silinəcək, bununla belə İstifadəçinin Gmoji App mobil aplikasiyasına çıxışı olacaq.*

*İstifadəçi tərəfindən Gmoji App mobil aplikasiyasında Qeydiyyat və ya Avtorizasiya prosedurunun tamamlanması İstifadəçinin hazırkı Razılaşmaya əsasən şəxsi məlumatlarının emal olunmasına razılıq verməsi anlamına gəlir.*

***10. Digər şərtlər***

*10.1. «Gmoji.az» MMC Müəssisə tərəfindən öz öhdəliklərinin lazımi qaydada icra etmədiyinə görə hazırkı Razılaşmanın 8.2.-ci bəndində təsvir edilmiş hallar istisna olmaqla, Gmoji sahibinə dəyən zərərə görə məsuliyyət daşımır.*

*«Gmoji.az» MMC Gmoji sahibinin Müəssisədən faktiki aldığı Məhsul ilə Gmojidə yerləşdirilən Məhsulun təsvirinin, şəklinin, ölçüsünün, həcminin və digər məlumatların uyğunluğuna görə məsuliyyət daşımır. "«Gmoji.az» MMC Gmoji sahibinin faktiki aldığı Məhsulun keyfiyyətinə görə məsuliyyət daşımır, müvafiq məsuliyyət Müəssisənin üzərindədir.*

*10.2. Qüvvədə olan qanunvericiliyə əsasən Məhsulun istehsalına, saxlanmasına, satışına dair sənədləşmə tələb olunduğu təqdirdə, müvafiq lisenziyanın, sertifikatın və digər icazə sənədləşməsinin mövcudluğuna və etibarlılığına görə Müəssisə məsuiyyət daşıyır.*

*10.3. «Gmoji.az» MMC-nin məsuliyyəti Gmoji App mobil aplikasiyasında Müəssisə adından Gmojinin yaradılması məqdədi ilə Məhsulun adının və təsvirinin yerləşdirilməsi ilə məhdudlaşır.*

*10.4. Məhsulun satışı ilə bağlı bütün hüquq və öhdəliklər bilavasitə Müəssisədə və Gmoji sahibində yaranır. Bütün pretenziyalar bilavasitə Müəssisəyə ünvanlanmalıdır.*

*10.5. 10.3. «Gmoji.az» MMC Gmojisi Gmoji App mobil aplikasiyasında təqdim edilmiş Məhsulun keyfiyyətinə, təhlükəsizliyinə, istifadə imkanlarına, həmçinin digər xüsusiyyətlərinə zəmanət vermir.*

*10.6. Gmoji sahibi xidmət səviyyəsi ilə bağlı yaranmış sualları bilavasitə Müəssisə ilə həll edə bilmədiyi təqdirdə «Gmoji.az» MMC-yə Gmoji App mobil aplikasiyasında qurulmuş çat və ya "Profil" bölməsində göstərilən dəstək xidmətinin elektron poçt ünvanına köməklik göstərilməsi üçün yazılı müraciət etmək hüququna malikdir. Bu halda "«Gmoji.az» MMC Gmoji sahibi ilə Müəssisə arasında yaranmış mübahisənin həll edilməsi üçün köməklik göstərməyə çalışacaq. Mübahisənin həll edilməsi mümkün olmadıqda, «Gmoji.az» MMC öz mülahizəsinə əsasən Gmoji sahibinə qiyməti eyni və ya az olan digər Gmoji təqdim edə və ya ödənilmiş məbləği geri qaytara bilər (Gmoji sahibi Alıcı olduqda).*

*10.7. Digər şərtlər qeyd olunmadıqda, Gmoji Müəssinin Məhsulunun sifariş edilməsinə və ya qəbul edilməsinə dair heç bir əlavə imtiyaz təqdim etmir*

*10.8. İstehlakçıların hüquqlarının müdafiəsi haqqında qanunvericiliyin tələblərinə əsasən, Gmoji vasitəsilə alınmış lazımı keyfiyyətdə olmayan Məhsulun Müəssisəyə qaytarılması halında, Müəssisə həmin Məhsulun geri qaytarılmasına imtina etmək (həmin Məhsulun geri qaytarılması nəzərdə tutulmadıqda), pul vəsaitinin geri ödənilməsi əvəzinə Məhsulun analoji Məhsulla əvəz etmək və ya hesablaşma aparılan Gmojinin nominal dəyərinə uyğun hədiyyə sertifikatı (hədiyyə kartı) təqdim etmək hüququna malikdir. Bütün digər hallarda Gmoji sahibi hazırkı Razılaşmanın 8.2.-ci bəndində göstərilən prosedura uyğun olaraq Gmojinin qaytarılması və ya dəyişdirilməsi üçün «Gmoji.az» MMC-yə müraciət edə bilər.*

*10.9. «Gmoji.az» MMC Gmoji App mobil aplikasiyasının istifadəsi ilə əlaqədar İstifadəçinin və ya Gmoji sahibinin onun tərkibinə və materiallarına çıxış əldə etməsi nəticəsində onlara dəyən hər hansı zərərə, uzlaşdığı itkiyə, itirilmiş məlumata, şərəf və ləyaqətin, dini azadlığın və ya işgüzar nüfuzun ləkələnməsinə görə heç bir məsuliyyət daşımır.*

*10.10. Gmojinin etibarlılıq müddəti Gmoji App mobil aplikasiyasında Gmoji alınması tarixi və vaxtından hesablanmağa başlayır və Gmojidə göstərilir. Vaxtın hesablanması Bakı şəhərinin vaxtına əsasən hesablanır. Gmojinin etibarlılıq müddəti bitdikdə, Gmoji ödənilmiş hesab olunur və onun təqdim edilməsi qadağandır. Bu halda İstifadəçi Məhsulu əldə edə bilmir, Gmoji üçün ödənilmiş pul vəsaiti isə geri qaytarılmır.*

*10.11. Gmoji "təqdim edənin sənədi" hesab edilir: Müəssisəyə Gmoji təqdim edən istənilən şəxs onun qanuni sahibi hesab edilir.*

*10.12. Gmoji yalnız bir dəfə istifadə edilə bilər və Gmoji sahibi yalnız bir dəfə Məhsul əldə edə bilər. Bir unikal kodu olan Gmoji eyni anda və ya fərlqli zamanlarda bir neçə Gmoji sahibi tərəfindən təqdim edildiyi təqdirdə, ilk təqdim edilən və ödənilən Gmoji etibarlı hesab edilir.*

*10.13. Gmojidə göstərilən Məhsuldan fərqli, həmçinin daha az və ya bahalı Məhsulun təqdim edilməsi, Gmoji nominalının bir hissəsindən istifadə edilməsinin daha uzun müddətə uzadılması və istənilən digər məsələləri İstifadəçi müstəqil şəkildə Müəssisə ilə həll edir.*

***11.** Mübahisələrin həlli*

*11.1. Hazırkı Razılaşmanın icrası nəticəsində yaranmış mübahisələr məhkəməyəqədər pretenziya qaydasında həll edilməlidir.*

*11.2. Pretenziyalar İstifadəçi tərəfindən Gmoji App mobil aplikasiyasının "Profil" bölməsində göstərilən dəstək xidmətinə və ya mütləq şəkildə məktub mövzusunu "Pretenziya" qeyd etməklə support@gmoji.az elektron poçt ünvanına göndərilməlidir.*

*11.3. Pretenziyaların hazırkı Razılaşmanın 12.2.-ci bəndində göstərilmiş üsuldan fərqli təqdim edilməsi yolverilməzdir.*

*11.4. Pretenziya qəbul edildiyi tarixindən 30 (otuz) iş günü ərzində baxılır.*